# NAFTALAN MÜASİR KURORT ŞƏHƏRİNƏ ÇEVRİLİR



**Naftalan Şəhər İcra Hakimiyyətində 2017-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilmişdir.**

**Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov** qeyd etdi ki, ölkəmizdə geniş vüsət alan sosial-iqtisadi inkişaf, aparılan quruculuq və abadlıq işləri kurort şəhəri olan Naftalanda da yüksək templə davam edir. Bu, özünü 2017-ci ilin 9 ayın statistikasında göstərir. Son illər möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Naftalanda istər turizm, istərsə də şəhərin infrastrukturunda irimiqyaslı layihələr həyata keçirilmişdir ki, bu da şəhərin simasının son dərəcədə dəyişməsinə, daha da gözəlləşməsinə təkan vermişdir.

2017-ci ilin doqquz ayında ümumi məhsul buraxılışı keçən ilin müvafiq dövrü ilə müqayisədə 54.3 faiz artaraq 15 mln. 45 min manat, iqtisadiyyatın aparıcı sahəsi olan sənaye məhsulu xidmətlərinin həcmi 10.5 faiz artaraq 1 mln. 502 min manat təşkil etmişdir. Əhaliyə 190.7 min manatlıq nəqliyyat xidməti göstərilmiş, əhalinin həyat səviyyəsini xarakterizə edən əsas göstəricilərdən biri olan ödənişli xidmətlərin həcmi 11 mln. 421 min manat olmuşdur. Pərakəndə əmtəə dövriyyəsinin həcmi 17 mln. 207 min manat, bir işçiyə hesablanmış orta aylıq əmək haqqı isə 278.7 manat, hüquqi və fiziki şəxslərə göstərilən informasiya və rabitə xidməti keçən ilin hesabat dövrü ilə müqayisədə 15.7 faiz artaraq 156.4 min manat təşkil etmişdir. Ümumi məhsul buraxılışının həcmində kənd təsərrüfatı məhsulunun payı 921.5 min manat, tikinti-quraşdırma işləri isə 4.8 dəfə artaraq 6 mln. 700 min manat təşkil etmişdir. Şəhər büdcəsi yerli mənbələrdən daxil olan gəlirlər hesabına 2 mln. 87.6 min manat planlaşdırıldığı halda 2 mln. 326 min manat olmuşdur. Yəni nəzərdə tutulduğundan 11,4 faiz artıq olmuşdur. Xərclər isə 1 mln. 733 min manat olmuşdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər şöbəsi tərəfindən 512 ailəyə ünvanlı dövlət sosial yardım və sosial müavinət ödənilmişdir. 27 nəfər əlilə istirahət və müalicə üçün sanatoriya-kurort yollayışı verilmişdir. Hesabat dövründə ümumilikdə şəhər üzrə 1520 nəfər pensiyaçıya xidmət göstərilmişdir.

Məşğulluq Mərkəzinə müraciət edən 359 nəfər işaxtarandan 216 nəfəri işlə təmin olunmuşdur. Son illər sahibkarlar tərəfindən tikilib istifadəyə verilmiş müasir səviyyəli yeni 3 və 5 ulduzlu müalicə və istirahət mərkəzlərində 900-dən artıq vətəndaş işlə təmin edilmişdir.

2016-2017-ci tədris ilində Naftalan şəhərinin ümumtəhsil məktəblərinin 11-ci sinfini 62 şagird bitirmiş, həmin məzunlardan 28-i respublikanın müxtəlif ali məktəblərinə qəbul olunmuşlar. Naftalan şəhəri üzrə yeni tədris ilində I sinifə qəbul olan uşaqların sayı 160 olmuş, onlardan 20-si xüsusi istedada malik uşaqlardır.

Bayram günlərində Naftalan şəhər Uşaq Musiqi məktəbinin müəllim və şagird kollektivi tərəfindən sakinlərin, eləcə də turistlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün konsert proqramları təşkil olunmuşdur.

Bu dövrdə yeniyetmə və gənclərin sağlamlığının qorunması, idmanın inkişaf etdirilməsi, eləcə də şəhər sakinlərinin idmanla məşğulluğunun təmin edilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Ümumilikdə gənclər və idman sahəsi üzrə şəhərdə keçirilmiş 36-ya yaxın müxtəlif tədbir və idman yarışlarında 1000 nəfərdən artıq yeniyetmə və gəncin iştirakı təmin olunmuşdur.

Səhiyyə müəssisələri tərəfindən əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, sanitar-gigiyenik vəziyyətə müntəzəm nəzarət edilməsi istiqamətində bir sıra zəruri tədbirlər görülmüşdür. Hesabat dövründə 396 nəfər imtiyazlı xəstə hər ay güzəştli dərman preparatları ilə təmin edilmişdir. Təcili Tibbi yardım məntəqəsində doqquz ay ərzində 1374 çağırış qeydə alınmış, tibb işçiləri tərəfindən onlara vaxtında tibbi yardım göstərilmişdir. Əhaliyə göstərilən tibbi xidmətin yeni tələblər səviyyəsinə çatdırılması məqsədilə şəhərdə yeni xəstəxananın tikintisi işləri hesabat dövründə davam etdirilmişdir. Hazırda 5 mərtəbədən ibarət olacaq xəstəxana binasında üst mərtəbələrin tikintisi işləri aparılır.

Şəhərdə aparılan geniş quruculuq və abadlıq işləri cari ilin doqquz ayı ərzində də davam etdirilmişdir. Çoxmənzilli yaşayış binalarının qarşısında salınan mini istirahət parklarında və piyada yollarının kənarında 600-ə yaxın Eldar şamı və 1000-dən artıq çinar ağacı əkilmişdir. Piyadalar üçün mövcud səkilər təmir edilmişdir. 8 beşmərtəbəli yaşayış binasının blokları əsaslı təmir olunmuş, suvaq və rəngləmə işləri aparılmışdır.

Payız-qış mövsümünə hazırlıq işlərinə yay aylarından başlanılmış, bununla əlaqədar şəhər İcra Hakimiyyəti başçısı tərəfindən 2017-2018-ci illər payız-qış mövsümünə hazırlıqla əlaqədar tədbirlər planı hazırlanaraq təsdiq edilmişdir. Naftalan İstilik İstismarı sahəsinin balansında olan 3 qazanxananın hər birində cari profilaktiki təmir işləri aparılmışdır. Hazırda çoxmənzilli yaşayış binalarının dam örtüklərində zəruri tədbirlər həyata keçirilir.

Hesabat dövründə 10 mərtəbəli, 42 otaqdan ibarət yeni "Avtovağzal Otel" kompleksində əsaslı təmir və yenidənqurma işləri aparılmışdır.

Müasir dünyada turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biri sayılır. Dövlətimizin başçısı ölkəmizdə turizmin inkişafını vacib istiqamətlərdən biri kimi şəxsən diqqətdə saxlayır. Bütün bunlar bizi daha böyük uğurlara ruhlandırır. Çünki bu gün Naftalan şəhəri nəinki ölkəmizdə, eləcə də yaxın və uzaq xaricdə məşhurlaşmışdır. Məhz bunun nəticəsidir ki, 2017-ci ilin doqquz ayında burada dincələn və müalicə olunan turistlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 59 faiz çox olmuşdur. Belə ki, 2017-ci ilin hesabat dövründə Naftalanın turizm obyektlərində 27 min 402 turist qeydə alınmışdır ki, bunun da 6538 nəfəri dünyanın 60-dək ölkəsindən gələn vətəndaşlardır.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov çıxışının sonunda qeyd etdi ki, sahibkarların, iş adamlarının fəaliyyəti üçün əlverişli şərait yaradılması, şəhərimizə yeni investorların cəlb edilməsi, yeni iş yerlərinin yaradılması bütün dövlət qurumlarının fəaliyyətinin ayrılmaz tərkib hissəsi olmalıdır və tam əminliklə demək olar ki, biz bu istiqamətdə öz fəaliyyətimizi daha da yüksək səviyyədə quracağıq.

Hesabat məruzəsi ətrafında şəhər Təhsil Şöbəsinin müdir əvəzi Rəna Dəmirova və şəhər maliyyə şöbəsinin rəisi Saleh Tağıyev çıxış edərək Azərbaycanda dayanıqlı inkişafdan, aparılan uğurlu islahatlardan, irimiqyaslı layihələrin icrasından, şəhərdə aparılan abadlıq-quruculuq işlərindən və qarşıda duran vəzifələrdən geniş söhbət açdılar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**